# İbrahim Yusifoğlu - 65

**Azərbaycan Yazıçılar və jurnalistlər birliklərinin üzvü, " Qızıl Qələm " media mükafatı laureatı, Prezident mükafatçısı, Azərbaycanın qabaqcıl təhsil işçisi İbrahim Yusifoğlu 65 yaşına çatır.**

**İbrahim Yusifoğlu 30 sentyabr 1954-cü ildə Şərur rayonunun Axura kəndində anadan olmuş, kənd məktəbinin 8-ci sinfini tərifnamə ilə bitirmişdir. Naxçıvan şəhərindəki pedaqoji məktəbdə təhsil almış, daha sonra təhsilini Naxçıvan Dövlət Pedaqoji İnstitutunun filologiya fakültəsində davam etdirmişdir. Ömrünün 50 ilə yaxın dövrünü təhsil sahəsində keçirmişdir.**

**İbrahim Yusifoğlunun ilk mətbuat yazısı 1968-ci ildə Şərur rayonunda dərc olunan " İşıqlı yol " qəzetində çap edilmiş, bu günədək yüzlərlə məqalə və oçerkləri respublika mətbuatında dərc olunmuş, 27 adda müxtəlif janrlarda yazılmış kitabları oxuculara çatdırılmışdır.**

**İ.Yusifoğlunun yaradıcılığı haqqında tanınmış ədəbiyyat adamları öz fikir və ürək sözlərini söyləmişlər. Biz də bu ürək sözlərinə qoşulub qələm dostumuzu - tanınmış müəllim, şair - publisist İbrahim Yusifoğlunu ad günü münasibəti ilə səmimi qəlbdən təbrik edirik.**

## *Ürəkdən yazılan səmimi şeirlər...*

Qədim və bərəkətli Şərur torpağının yetirməsi olan şair dostum İbrahim Yusifoğlunu ilk gündən istedadlı bir ziyalı kimi tanıyıram. Məlumdur ki, ziyalılar müxtəlif peşə sahibləri olurlar. Ancaq, İbrahim sözün əsl mənasında müəllimdir - sadə müəllim ömrü yaşayan ziyalıdır. Bu isə onun şairlik bəsirətini ildən - ilə artırır, yaradıcılığını getdikcə zənginləşdirir...

İbrahim Yusifoğlu xoşuma gələn şairdir. Çünki, nə yazırsa ürəkdən yazır, şeirləri də özü kimi səmimidir. ordenli

**Hüseyn İbrahimov,**
**Xalq yazıçısı, Şöhrət ordenli**

## *Badam ağacında bənövşə çiçəyi*

İbrahim Yusifoğlu milli şeirimizin istedadlı və məhsuldar nümayəndələrindən biridir. O, şeiri vərdiş, yaxud mütaliədən çox istedadla,təbii ilhamın axarında yazan şairlərdəndir.İstedad, İbrahim Yusifoğluna həyatı və insanları şairanə şəkildə, poetik görkəmdə duymaqda və görməkdə bələdçilik edir.Dağlı - aranlı qədim Şərur çuxurunun, Saralı - Xançobanlı Arpaçayın təbii görkəmi, həyat ritmi.İbrahim Yusifoğlu şeirlərində özünün əsl poetik mənasını tapa bilir. Buna baxmayaraq, İbrahim Yusifoğlunun palitrasında baharın tacı, bənövşənin və badam ağacının rəng çalarları üstünlük təşkil edir.Adama elə gəlir ki, İbrahim Yusifoğlu Şərurun qonur, çılpaq dağlarını və Arpaçay vadisini alaseyrək çiçəkli badam ağacı sifətində görür.

Həyatını barmaqları bənövşəyi mürəkkəbli şagirdlərin və müəllimlərin arasında keçirən İbrahim Yusifoğlunun qələmə aldığı bir çox misraları isə həm rəng çalarına, həm də poetik mənasına görə bənövşə çiçəyinə bənzəyir. Bəlkə də belə demək mümkündür ki, İbrahim Yusifoğlunun şeir yaradıcılığı bütövlükdə sanki, Badam ağacında bənövşə çiçəyidir.



**İsa Həbibbəyli**
**Əməkdar elm xadimi,**
**Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü.**

## *Öz naxışı, öz ilməsi olan şair*

Böyük sevinc hissi ilə bildirirəm ki, İbrahim Yusifoğlu şeirdən - şeirə, kitabdan - kitaba dəyişilən, yenilənən şairdir. Hisslərinin, duyğularının saflığı doğulub boya - başa çatdığı Axura kəndinin məşhur bulaqlarının suyu kimi insana xoş təsir bağışlayır.

İbrahim xoşbəxt taleyi olan şairlərdəndir. Ona görə ki, o dünyaya dörd bir tərəfi əzəmətli dağlarla əhatə olunan, neçə - neçə gözəl şeirlərin mövzusuna çevrilmiş Axura kəndində doğulub və sonrakı illərdə bu kəndin özü də İbrahimin şeirləri ilə ayaq tutub yeriyib, doğma Azərbaycanımızı qarış - qarış gəzib dolanıb. İbrahim Yusifoğlu bir şair kimi öz taleyini, ağrısını, acısını, sevincini şeirlərinə hopdurur.Təbii haldır ki, bütün bunların daxilində Vətəninə olan ağrı, sevinc hissləri də yaşayır. Şairlə bağlı tükənməyən düşüncələrimi ona həsr etdiyim şeirin bir bəndi ilə tamamlamaq istəyirəm :

Məhəbbəti ipək kimi, nifrəti bir ox,
Dünyanın hər nemətindən iki gözü tox.
Nəğməsində yad sözlər yox, yad kəlmələr yox,
Neçə - neçə səs içində öz səsi vardır.

**Asim Yadigar**
**Şair, Əməkdar Mədəniyyət işçisi.**

## *Sən özün istətdin özünü mənə...*

Bu gün dünyada halallığın az - çox qaldığı bir yer var.

O da Söz dünyası, Söz ölkəsi, Söz məmləkətidir! Təbii ki, bu dünyanın belə halal qalmasının müxtəlif səbəbləri var.

Bu səbəblərin içərisində isə ən birincisi halal adamların, işıqlı insanların, sözlə yaşayıb, sözlə oturub - duran qələm sahiblərinin varlığıdır.

Yəni, söz bu insanların çörəyi, suyu, havası və dayaq nöqtəsi olduğundan onlar da məhz, bütün nemətlərdən bəhrələnib öz dayaqları üzərində möhkəm dayanıb sözü yaşadır, göyərdir, məlhəmə, can dərmanına və ümid yerinə çevirirlər. Bax, bu adamlardan biri də Qədim Naxçıvanın Şərur bölgəsində yaşayan İbrahim Yusifoğludur.

**İbrahim Yusifoğlu şeirlərində oxucunu özününküləşdirir, bir az da açıq desəm oxucu şairin özünə çevrilir. Bu da şeirin həm səmimi notlardan bəhrələnməsinin, həm də peşəkarlığın nəticəsidir.Yəni, sözün üstündə təkcə əsmək yox, ona həm də ürək, qan vermək lazımdır. Elə şair özü də ruhən, həm də sözlə yaşamaq mövqeyindən məhz şeirə bu cür yanaşır, şeirlə bu cür davranır.Onun təbiətə ünvanlanan misraları, Cənub həsrətli, Təbriz nisgilli məhəbbət mövzulu şeirləri oxucunu doğrudan-doğruya özünə cəlb edir.**

**Əbülfət Mədətoğlu,**
**şair,publisist.**